2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 avqust 2024-cü il tarixli 28 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən irəli sürülmüş Kərimli Nigar Bəybala qızı 10 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) yazılı müraciət etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərkən müraciətin Seçki Məcəlləsinin və müvafiq Təlimatın müəyyən etdiyi tələblərin pozulması ilə daxil olduğu müəyyən edilmiş, müraciətin onu göndərən şəxsə geri qaytarılmasına dair rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət daxil olduqdan sonra ərizəçi ilə əlaqə saxlanılmış, müraciətin Seçki Məcəlləsinin tələblərinin pozulması ilə daxil olması barədə ona məlumat verilmiş, iclasda iştirak etmək hüququnun olması izah edilmiş və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd müraciətin partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən tərtib edildiyini, məzmunundan məlumatsız olduğunu bildirmişdir.

Namizədin müraciətində göstərilmişdir ki, “1 sentyabr 2024-cü il növbədənkənar parlament seçkilərində Ümid Partiyası tərəfindən 10 saylı Binəqədi üçüncü seçki dairəsindən namizədliyi irəli sürülmüş Kərimli Nigar Bəybala qızının sənədlərinə baxış zamanı 121 saylı Laçın dairə seçki komissiyasının üzvləri Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 19.4, 19.14, 31.1.1, 34.3, 34.4, 58, 59, 60-cı, 147 və 148.1-ci maddələrini əsas gətirərək onun namizədliyinin qeydə alınmaması ilə bağlı qərar qəbul etmişdir”.

Nəzərdən keçirilən zaman müraciətin seçki qanunvericiliyinin tələblərinin pozulması ilə daxil olması və namizədin tələbinin aydın olmaması müəyyən edilmişdir.

Seçki Məcəlləsinin 112.5-ci maddəsində seçki hüquqlarının pozulması ilə bağlı təqdim edilən şikayətlərə dair tələblər müəyyən edilmişdir.

Bu tələblər sırasında şikayət üçün əsas kimi Seçki Məcəlləsinin, digər qanunvericilik aktlarının pozulmasının güman edilməsi, güman edilən pozuntunun dəlilləri və ya pozuntunun nədən ibarət olduğunun izahı, şikayətçinin tələbi və sairə öz əksini tapmışdır.

“Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 2.5-ci bəndində göstərilir ki, əgər şikayətdə qeyd edilən şərtlərdən hər hansı biri yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, şikayət onu göndərən şəxsə geri qaytarılır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 2-ci hissəsinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyi Azərbaycan Ümid Partiyası tərəfindən

irəli sürülmüş Kərimli Nigar Bəybala qızının 10 avqust 2024-cü il tarixli 28 saylı müraciəti Seçki Məcəlləsinin və müvafiq Təlimatın müəyyən etdiyi qaydaların pozulması ilə daxil olduğundan onu göndərən şəxsə geri qaytarılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |